# "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti

2016-cı ilin 1-ci yarımilliyi üzrə konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatı

OFFICE COPY

## "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti

### Mündəricat


Səhifə

2016-CI İLİN 1-Cİ YARIMİLLİYİ ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ ARALIQ YIĞCAM MALİYYƏ MƏLUMATININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT ........ 1

KONSOLİDƏ EDİLMİŞ ARALIQ YIĞCAM MALİYYƏ MƏLUMATININ AUDİTİNƏ DAİR MÜSTƏQİL AUDİTOR RƏYİ ........ 2-3

2016-CI İLİN 1-Cİ YARIMİLLİYİ ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ ARALIQ YIĞCAM MALİYYƏ MƏLUMATI:

Maliyyə vəziyyəti haqqında konsolidə edilmiş aralıq yığcam hesabat ........ 4
Məcmu gəlirlər haqqında konsolidə edilmiş aralıq yığcam hesabat ........ 5
Kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş aralıq yığcam hesabat ........ 6
Pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş aralıq yığcam hesabat ........ 7-8

Konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatına qeydlər:

1. Ümumi məlumat ........ 9
2. Hazırlanma əsasları ........ 10
3. Mühüm mühasibat uçotu siyasətləri ........ 12
4. Yenidən təsnifləşdirmə ........ 13
5. Pul vəsaitləri və onların ekvivalentləri ........ 14
6. Banklardan və digər maliyyə institutlarından alınacaq vəsaitlər ........ 14
7. Müştərilərə verilmiş kreditlər ........ 14
8. Satılabilən investisiyalar ........ 15
9. Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər ........ 15
10. Müştəri hesabları ........ 15
11. Buraxılmış borc qiymətli kağizlari ........ 16
12. Digər borc alınmış vəsaitlər ........ 16
13. Seqment hesabatı ........ 16
14. Dəyərsizləşmə zərərləri üçün ehtiyat və digər ehtiyatlar ........ 19
15. Əlavə ödənilmiş kapital ........ 19
16. Kapitalın idarə edilməsi ........ 19
17. Şərti öhdəliklər və təəhhüdlər ........ 21
18. Ədalətli dəyər ........ 22
19. Əlaqəli tərəflərlə əməliyyatlar ........ 25
20. Hesabat tarixindən sonrakı hadisələr ........ 27

# "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti

## 2016-cı ilin 1-ci yarımilliyi üzrə konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatının hazırlanması və təsdiqlənməsi ilə bağlı rəhbərliyin məsuliyyətinə dair hesabat

Rəhbərlik "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti (ASC "ABB") və onun törəmə müəssisələrinin (birlikdə - "Qrup") 30 iyun 2016-cı il tarixinə maliyyə vəziyyətini, eləcə də 2016-cı ilin 1-ci yarımilliyi üzrə konsolidə edilmiş əməliyyat nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda dəyişiklikləri düzgün əks etdirən konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatının "Aralıq Maliyyə Hesabatı" adlı 34 saylı Mühasibat Uçotunun Beynəlxalq Standartına (34 saylı MUBS) müvafiq olaraq hazırlanmasına görə məsuliyyət daşıyır.

Konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsi və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə konkret əməliyyatların, digər hadisə və şəraitlərin Qrupun konsolidə edilmiş maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardımçı olmaq üçün Maliyyə Hesabatının Beynəlxalq Standartlarının ("MHBS") xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamaların verilməsinə; və
- Qrupun fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin, rəhbərlik aşağıdakılara görə məsuldur:

- Qrup daxilində sağlam və effektiv daxili nəzarət sisteminin yaradılmasına, tətbiqinə və saxlanılmasına;
- Qrupun əməliyyatlarının açıqlanmasına və izah edilməsinə, habelə onun konsolidə edilmiş vəziyyətinin istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Qrupun konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatının 34 saylı MHBS-ə uyğun olduğunu təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılmasına;
- Azərbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu qaydalarına müvafiq olaraq mühasibat uçotu qeydlərinin aparılmasına;
- Qrupun aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlərin görülməsinə; və
- Saxtakarlıq və digər qanun pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına.

Qrupun 2016-cı ilin 1-ci yarımilliyi üzrə konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatı 28 oktyabr 2016-cı il tarixində Qrupun Rəhbərliyi tərəfindən təsdiq olunmuşdur.

**İdarə Heyəti tərəfindən:**

**Cənab Elmar Məmmədov**
İdarə Heyətinin Sədri

Azərbaycan Respublikası, Bakı
28 oktyabr 2016-cı il

**Cənab Ülvi Mansurov**
Baş Maliyyə Direktoru

Azərbaycan Respublikası, Bakı
28 oktyabr 2016-cı il

Deloitte.

"Deloitte & Touche" MMC
Landmark
Nizami küç. 96
Bakı, AZ1010
Azərbaycan
Tel: +994(12) 404 12 10
Faks:+994(12) 404 12 11
www.deloitte.az

## MÜSTƏQİL AUDİTOR RƏYİ

"ABB" ASC-nin Səhmdarlarının və İdarə Heyətinin nəzərinə:

Biz "ABB" ASC-nin və onun törəmə müəssisələrinin ("Qrup") 30 iyun 2016-cı il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş aralıq yığcam hesabatdan və 2016-cı ilin 1-ci yarımilliyi üzrə Qrupun məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş aralıq yığcam hesabatlardan, habelə mühüm mühasibat uçotu qaydalarının xülasəsi və digər izahlı qeydlərdən ibarət olan konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatının auditini apardıq.

### Rəhbərliyin konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatı üzrə məsuliyyəti

Rəhbərlik hazırkı konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatının "Aralıq Maliyyə Hesabatı" adlı 34 saylı Mühasibat Uçotunun Beynəlxalq Standartına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də saxtakarlıq, yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhriflərin olmadığı konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatının hazırlanması üçün rəhbərliyin qənaətinə əsasən zəruri sayılan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

### Auditorun məsuliyyəti

Bizim məsuliyyətimiz apardığımız auditə əsasən bu konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatına dair rəy bildirməkdən ibarətdir. Biz auditi Beynəlxalq Audit Standartlarına müvafiq olaraq həyata keçirdik. Bu standartlar bizdən etik tələblərə riayət etməyimizi, eləcə də konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatında mühüm təhriflərin olmadığına kifayət qədər əminliyin əldə edilməsi məqsədilə auditi planlaşdırmağımızı və həyata keçirməyimizi tələb edir.

Audit zamanı konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatındakı məbləğ və açıqlamalara dair audit sübutlarının əldə olunması ilə bağlı prosedurlar yerinə yetirilir. Prosedurlar auditorun mülahizəsi, o cümlədən konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatında saxtakarlıq, yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhriflərin olması riskinin qiymətləndirilməsindən asılı olaraq seçilir. Belə riskin qiymətləndirilməsini həyata keçirərkən auditor şəraitə uyğun olaraq audit prosedurlarının planlaşdırılması məqsədilə müəssisənin daxili nəzarət sistemini həmin sistemin effektivliyi barədə rəy bildirmək üçün deyil, müəssisə tərəfindən konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatının düzgün hazırlanması və təqdim edilməsi ilə əlaqədar olaraq nəzərdən keçirir. Auditə, həmçinin, rəhbərlik tərəfindən tətbiq edilən mühasibat uçotu qaydalarının müvafiqliyinin və irəli sürülmüş mühasibat təxminlərinin əsaslı olduğunun qiymətləndirilməsi, habelə konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatının ümumi təqdimatının qiymətləndirilməsi daxildir.

Hesab edirik ki, audit rəyimizi bildirmək üçün əsas verən yetərli və uyğun audit sübutu əldə etmişik.

Deloitte adı Böyük Britaniyanın qanunvericiliyi əsasında qeydiyyatdan keçərək zəmanətlə məhdudlaşdırılmış Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan və ayrı-ayrılıqda hər biri müstəqil hüquqi şəxs olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə aid ola bilər. Deloitte Touche Tohmatsu Limited və ona üzv şirkətlərin hüquqi strukturu barədə ətraflı məlumat üçün www deloitte com/about səhifəsinə daxil olun
© 2016 Deloitte & Touche MMC Bütün hüquqlar qorunur.

**Rəy**

Fikrimizcə, Qrupun 2016-cı ilin 1-ci yarımilliyi üzrə konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatı bütün əhəmiyyətli hallarda "Aralıq Maliyyə Hesabatı" adlı 34 saylı Mühasibat Uçotunun Beynəlxalq Standartına müvafiq olaraq düzgün hazırlanmışdır.

**İzahedici paraqraf**

2014-2016-cı illərdə neft qiymətlərinin düşməsi və bunun nəticəsində manatın devalvasiya olunması ilə bağlı iqtisadiyyatda baş verən xoşagəlməz dəyişikliklər Qrupa və onun müştərilərinə mənfi təsir göstərmişdir. Nəticədə, Qrupun 2016-cı ilin 1-ci yarımilliyi üzrə dəyərsizləşmə zərərindən əvvəl xalis faiz xərcləri 53,596 min manat və xalis zərəri 322,804 min manat, 30 iyun 2016-cı il tarixinə yığılmış zərər isə 1,067,463 min manat olmuşdur. Qrupun maliyyə sabitliyini qoruyub saxlamaq üçün Azərbaycan Respublikası hökuməti 2015-2017-ci illərdə Qrupun problemli aktivlərinin dövlətə məxsus Aqrarkredit QSC-yə köçürülməsini qərarlaşdırmışdır. Rəyimizi dəyişdirmədən diqqətinizi, Qrupun yeni rəhbərliyi tərəfindən hazırlanmış və nəzarət səhm paketinə sahib səhmdarın dəstəklədiyi strategiya və fəaliyyət planı əks olunmuş 2 saylı Qeydə yönəldirik.

Deloitte & Touche

Bakı, Azərbaycan
28 oktyabr 2016-cı il

## 30 iyun 2016-cı il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş aralıq yığcam hesabat
*(min Azərbaycan manatı ilə)*

| | Qeyd | 30 iyun 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 5, 19 | 2,289,342 | 1,597,696 |
| Mərkəzi Banklarda yerləşdirilmiş məcburi ehtiyatlar | | 11,909 | 15,334 |
| Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeyd olunan maliyyə aktivləri | | 7,319 | 906 |
| Banklardan və digər maliyyə institutlarından alınacaq vəsaitlər | 6, 19 | 3,285,740 | 102,028 |
| Müştərilərə verilmiş kreditlər | 7, 19 | 5,135,769 | 5,664,881 |
| Satılabilən investisiyalar | 8, 19 | 36,166 | - |
| Aqrarkredit QSC-dən alınacaq vəsaitlər | 19 | 2,842,432 | 5,628,923 |
| Cari mənfəət vergisi aktivləri | | 21,008 | 16,946 |
| Təxirə salınmış mənfəət vergisi aktivlər | | 348 | 58,503 |
| Binalar, avadanlıqlar və qeyri-maddi aktivlər | | 252,600 | 322,741 |
| Digər aktivlər | | 309,747 | 249,317 |
| **Cəmi aktivlər** | | **14,192,380** | **13,657,275** |
| **Öhdəliklər və kapital** | | | |
| Öhdəliklər: | | | |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | 9 | 1,669,425 | 2,150,964 |
| Müştəri hesabları | 10, 19 | 8,175,442 | 6,696,759 |
| Buraxılmış borc qiymətli kağızları | 11 | 788,018 | 893,654 |
| Digər borc alınmış vəsaitlər | 12, 19 | 1,984,846 | 2,310,214 |
| Təxirə salınmış mənfəət vergisi öhdəlikləri | | 110,732 | 42,889 |
| Digər öhdəliklər | | 122,975 | 89,712 |
| Subordinasiya borcu | 19 | 771,995 | 759,043 |
| **Cəmi öhdəliklər** | | **13,623,433** | **12,943,235** |
| Kapital: | | | |
| Bankın səhmdarlarına aid edilən kapital: | | | |
| Səhmdar kapitalı | | 641,287 | 641,287 |
| Əlavə ödənilmiş kapital | 15 | 999,028 | 799,971 |
| Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi ehtiyatı | | (49,002) | (27,648) |
| Binalar üzrə yenidən qiymətləndirmə ehtiyatı | | 40,177 | 40,740 |
| Yığılmış zərər | | (1,067,463) | (744,750) |
| Bankın səhmdarlarına aid edilən cəmi kapital | | 564,027 | 709,600 |
| Qeyri-nəzarət payı | | 4,920 | 4,440 |
| **Cəmi kapital** | | **568,947** | **714,040** |
| **Cəmi öhdəliklər və kapital** | | **14,192,380** | **13,657,275** |

**İdarə Heyəti tərəfindən:**

**Cənab Elmar Məmmədov**
İdarə Heyətinin Sədri

Azərbaycan Respublikası, Bakı
28 oktyabr 2016-cı il

**Cənab Ülvi Mansurov**
Baş Maliyyə Direktoru

Azərbaycan Respublikası, Bakı
28 oktyabr 2016-cı il

«AZƏRBAYCAN BEYNƏLXALQ BANKI» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ • OPEN JOINT-STOCK COMPANY «THE INTERNATIONAL BANK OF AZERBAIJAN»

9-27-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatının ayrılmaz hissəsini təşkil edir.

# "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti

## 2016-cı ilin 1-ci yarımilliyi üzrə məcmu gəlirlər haqqında konsolidə edilmiş aralıq yığcam hesabat

*(Başqa qeydlər olmazsa, min Azərbaycan manatı ilə)*

| | Qeyd | 2016-cı ilin 1-ci yarımilliyi | 2015-ci ilin 1-ci yarımilliyi |
|---|---|---|---|
| Faiz gəliri | 19 | 223,807 | 359,366 |
| Faiz xərci | 19 | (277,403) | (264,858) |
| **Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərindən əvvəl xalis faiz (xərci)/gəliri** | | (53,596) | 94,508 |
| Faiz hesablanan aktiv və öhdəliklərin ilkin tanınması üzrə düzəlişlər | | 7,987 | - |
| Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri | 14 | (19,958) | (328,274) |
| **Xalis faiz xərci** | | (65,567) | (233,766) |
| Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeyd olunan maliyyə aktivləri üzrə xalis gəlir/(zərər) | | 2,299 | (2,420) |
| Xarici valyuta ilə ticarət əməliyyatları üzrə gəlirlər | | 46,827 | 16,718 |
| Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə zərərlər | | (72,861) | (11,505) |
| Haqq və komissiya gəliri | 19 | 63,663 | 64,065 |
| Haqq və komissiya xərci | | (6,711) | (9,202) |
| Digər ehtiyatlar | 14 | (5,293) | (5,229) |
| Əmlak və avadanlığın dəyərsizləşməsi | | (127,774) | - |
| Digər əməliyyat gəliri | | 3,683 | 5,036 |
| **Xalis qeyri-faiz (xərci)/gəliri** | | **(96,167)** | **57,463** |
| **Əməliyyat zərərləri** | | **(161,734)** | **(176,303)** |
| Əməliyyat xərcləri | 19 | (81,800) | (65,448) |
| **Mənfəət vergisindən əvvəl zərər** | | **(243,534)** | **(241,751)** |
| Mənfəət vergisi | | (79,270) | 44,822 |
| **Dövr üzrə xalis zərər** | | **(322,804)** | **(196,929)** |
| Təsnifat: | | | |
| Ana müəssisənin təsisçilərinə aid hissə | | (323,276) | (196,817) |
| Qeyri-nəzarət payı | | 472 | (112) |
| | | (322,804) | (196,929) |
| Səhm üzrə zərər | | | |
| Əsas (AZN) | | (0.14) | (0.09) |
| Azaldılmış (AZN) | | (0.14) | (0.09) |
| DİGƏR MƏCMU (ZƏRƏR)/GƏLİR: | | | |
| **Sonradan mənfəət və ya zərər hesabları üzrə yenidən təsnifləşdirilməyəcək maddələr** | | | |
| Xarici valyutada aparılan əməliyyatların yenidən qiymətləndirilməsi üzrə məzənnə fərqləri | | (21,354) | (18,921) |
| DÖVR ÜZRƏ DİGƏR MƏCMU ZƏRƏR | | (21,354) | (18,921) |
| DÖVR ÜZRƏ CƏMİ MƏCMU ZƏRƏR | | (344,158) | (215,850) |
| TƏSNİFAT: | | | |
| Ana müəssisənin təsisçilərinə aid hissə | | (344,638) | (216,066) |
| Qeyri-nəzarət payı | | 480 | 216 |
| | | (344,158) | (215,850) |

**İdarə Heyəti tərəfindən:**

**Cənab Elmar Məmmədov**
İdarə Heyətinin Sədri

Azərbaycan Respublikası, Bakı
28 oktyabr 2016-cı il

**Cənab Ülvi Mansurov**
Baş Maliyyə Direktoru

Azərbaycan Respublikası, Bakı
28 oktyabr 2016-cı il

«AZƏRBAYCAN BEYNƏLXALQ BANKI» SƏHMDAR CƏMİYYƏTİ * OPEN JOINT STOCK COMPANY * THE INTERNATIONAL BANK OF AZERBAIJAN

9-27-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatının ayrılmaz hissəsini təşkil edir.

## "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti

### 2016-cı ilin 1-ci yarımilliyi üzrə kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş aralıq yığcam hesabat
*(min Azərbaycan manatı ilə)*

| | Səhmdar kapitalı | Əlavə ödənilmiş kapital | Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi ehtiyatı | Əmlak üçün yenidən qiymətləndirmə ehtiyatı | Bölüşdürülməmiş mənfəət/ (yığılmış zərər) | Ana müəssisənin təsisçilərinə aid cəmi kapital | Qeyri-nəzarət payı | Cəmi kapital |
|---|---|---|---|---|---|---|---|---|
| **1 yanvar 2015-ci il** | 590,192 | - | (14,511) | 42,160 | 65,670 | 683,511 | 3,073 | 686,584 |
| Dövr üzrə zərər | - | - | - | - | (196,817) | (196,817) | (112) | (196,929) |
| Dövr üzrə digər məcmu zərər | - | - | (19,249) | - | - | (19,249) | 328 | (18,921) |
| Silinmədən sonra yığılmış zərərə köçürülmüş əmlak üçün yenidən qiymətləndirmə ehtiyatı | - | - | - | (704) | 704 | - | - | - |
| Adi səhmlərin buraxılması | 51,095 | - | - | - | - | 51,095 | - | 51,095 |
| **30 iyun 2015-ci il** | **641,287** | **-** | **(33,760)** | **41,456** | **(130,443)** | **518,540** | **3,289** | **521,829** |
| **1 yanvar 2016-cı il** | **641,287** | **799,971** | **(27,648)** | **40,740** | **(744,750)** | **709,600** | **4,440** | **714,040** |
| Dövr üzrə zərər | - | - | - | - | (323,276) | (323,276) | 472 | (322,804) |
| Dövr üzrə digər məcmu zərər | - | - | (21,354) | - | - | (21,354) | 8 | (21,346) |
| Silinmədən sonra yığılmış zərərə köçürülmüş əmlak üçün yenidən qiymətləndirmə ehtiyatı | - | - | - | (563) | 563 | - | - | - |
| Əlavə ödənilmiş kapital (Qeyd 2, 15) | - | 199,057 | - | - | - | 199,057 | - | 199,057 |
| **30 iyun 2016-cı il** | **641,287** | **999,028** | **(49,002)** | **40,177** | **(1,067,463)** | **564,027** | **4,920** | **568,947** |

**İdarə Heyəti tərəfindən:**

**Cənab Elmar Məmmədov**
İdarə Heyətinin Sədri

Azərbaycan Respublikası, Bakı
28 oktyabr 2016-cı il

**Cənab Ülvi Mansurov**
Baş Maliyyə Direktoru

Azərbaycan Respublikası, Bakı
28 oktyabr 2016-cı il

9-27-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatının ayrılmaz hissəsini təşkil edir.

# "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti

## 2016-cı ilin 1-ci yarımilliyi üzrə pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş aralıq yığcam hesabat

***(Başqa qeydlər olmazsa, min Azərbaycan manatı ilə)***

| | Qeyd | 2016-cı ilin 1-ci yarımilliyi | 2015-ci ilin 1-ci yarımilliyi |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN YARANAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Alınmış faizlər | | 71,248 | 61,170 |
| Ödənilmiş faizlər | | (263,446) | (234,484) |
| Alınmış haqq və komissiyalar | | 63,957 | 62,603 |
| Ödənilmiş haqq və komissiyalar | | (10,065) | (8,381) |
| Xarici valyuta ilə ticarət əməliyyatları üzrə gəlirlər | | 46,827 | 16,718 |
| Əldə edilmiş digər əməliyyat gəlirləri | | 5,049 | 9,147 |
| İşçi heyəti ilə bağlı ödənilmiş xərclər | | (27,651) | (31,017) |
| Ödənilmiş digər əməliyyat xərcləri | | (51,330) | (27,637) |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə istifadə edilən pul vəsaitləri | | (165,411) | (151,881) |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər: | | | |
| Mərkəzi banklardakı məcburi ehtiyatlarda xalis azalma/(artım) | | 3,425 | (2,648) |
| Banklardan və digər maliyyə institutlarından alınmalı vəsaitlərdə xalis (artım)/azalma | | (3,166,124) | 43,207 |
| Müştərilərə verilmiş kreditlərdə xalis artım | | (1,198,820) | (120,194) |
| Mənfəət və ya zərərdə ədalətli dəyərlə qeyd olunan maliyyə aktivlərində xalis (artım)/azalma | | (6,413) | 7,906 |
| Aqrarkredit QSC-dən alınmış vəsaitlər | 14 | 4,580,000 | - |
| Digər aktivlərdə xalis azalma/(artım) | | 178,687 | (60,407) |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlərdə xalis azalma | | (503,920) | (447,990) |
| Müştəri hesablarında xalis artım/(azalma) | | 1,522,661 | (139,420) |
| Digər öhdəliklərdə xalis artım/(azalma) | | 21,040 | (34) |
| Vergidən əvvəl əməliyyat fəaliyyəti üzrə yaranmış/(istifadə olunmuş) pul vəsaitləri | | 1,265,125 | (871,461) |
| Ödənilmiş mənfəət vergisi | | (7,213) | (4,862) |
| Əməliyyat fəaliyyəti üzrə yaranmış/ (istifadə olunmuş) xalis pul vəsaitləri | | 1,257,912 | (876,323) |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN YARANAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Binalar, avadanlıqlar və qeyri-maddi aktivlər üçün ödənişlər | | (56,117) | (28,363) |
| Satılabilən investisiyaların satışından daxilolmalar | | - | 5,287 |
| Satılabilən investisiyalar üçün ödənişlər | | (35,436) | (690) |
| İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri | | (91,553) | (23,766) |

## 2016-cı ilin 1-ci yarımilliyi üzrə pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş aralıq yığcam hesabat (davamı)

*(Başqa qeydlər olmazsa, min Azərbaycan manatı ilə)*

| | Qeyd | 2016-cı ilin 1-ci yarımilliyi | 2015-ci ilin 1-ci yarımilliyi |
|---|---|---|---|
| **MALİYYƏ FƏALİYYƏTİNDƏN YARANAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Adi səhmlərin buraxılması üzrə daxilolmalar | | - | 51,095 |
| Borc qiymətli kağızlarının buraxılmasından daxilolmalar | | - | 79,531 |
| Borc qiymətli kağızlarının geri ödənilməsi | | (111,722) | - |
| Digər borc alınmış vəsaitlər üzrə daxilolmalar | | 202,655 | 621,742 |
| Digər borc alınmış vəsaitlərin geri ödənilməsi | | (497,003) | (415,615) |
| Subordinasiya borcu üzrə daxilolmalar | | - | 262,510 |
| Maliyyə fəaliyyəti üzrə (istifadə olunmuş)/ əldə edilmiş xalis pul vəsaitləri | | (406,070) | 599,263 |
| Xarici valyuta məzənnəsindəki dəyişikliklərin xarici valyuta ilə saxlanılan pul vəsaitlərinə təsiri | | (68,643) | 124,615 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM/(AZALMA) | | 691,646 | (176,211) |
| Dövrün əvvəlinə PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ | 5 | 1,597,696 | 593,195 |
| Dövrün sonuna PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ | 5 | 2,289,342 | 416,984 |

**İdarə Heyəti tərəfindən:**

**Cənab Elmar Məmmədov**
İdarə Heyətinin Sədri

Azərbaycan Respublikası, Bakı
28 oktyabr 2016-cı il

**Cənab Ülvi Mansurov**
Baş Maliyyə Direktoru

Azərbaycan Respublikası, Bakı
28 oktyabr 2016-cı il

9-27-ci səhifələrdəki qeydlər bu konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatının ayrılmaz hissəsini təşkil edir.

## 1. Ümumi məlumat

Azərbaycan Beynəlxalq Bankı ("Bank") 1991-ci ildə Azərbaycan Respublikasında tam dövlətə məxsus olan bank kimi təsis olunmuşdur. 28 oktyabr 1992-ci ildə Bank səhmdar kommersiya bankına çevrilmiş və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (MN) Bankın əsas səhmdarı olmuşdur. 30 iyun 2016-cı il tarixinə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Aqrarkredit QSC Bankın ümumi ödənilmiş nizamnamə kapitalının müvafiq olaraq 54,96% və 27,26% hissəsinə (31 dekabr 2015-ci il: 54,96% və 27,26% hissəsinə) sahib olmuşdur. Bankın fəaliyyəti Azərbaycan Respublikasının Mərkəzi Bankı ("ARMB") tərəfindən tənzimlənir və 30 dekabr 1992-ci il tarixində verilmiş ümumi bank lisenziyası əsasında fəaliyyət göstərir. 1 mart 2005-ci il tarixində Bankın nizamnamə kapitalında dövlətə məxsus payların özəlləşdirilməsi prosesini müəyyənləşdirən Azərbaycan Respublikası Prezidentinin Fərmanı qüvvəyə minmişdir. Bankın əsas fəaliyyəti kommersiya bankçılığı, qiymətli kağızlar, xarici valyuta və derivativ maliyyə alətləri ilə ticarət əməliyyatları, kredit və zəmanətlərin verilməsindən ibarətdir.

Bankın hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1005, Nizami küçəsi 67.

30 iyun 2016-cı və 31 dekabr 2015-ci il tarixlərinə Bankın Azərbaycan Respublikasında 35 filialı, London və Frankfurtda nümayəndəlikləri fəaliyyət göstərir.

Bank maliyyə məlumatlarında konsolidə edilmiş aşağıdakı müəssisələrdən ibarət olan qrupun ("Qrup") ana müəssisəsidir:

| | | Təsisçi payı / səsvermə hüququ (%) | | |
|---|---|---|---|---|
| **Adı** | **Fəaliyyət göstərdiyi ölkə** | **30 iyun 2016-cı il** | **2015-ci il** | **Əməliyyat növü** |
| "Azərbaycan Beynəlxalq Bankı" ASC | Azərbaycan Respublikası | Ana müəssisə | | Bankçılıq |
| **Törəmə müəssisələr:** | | | | |
| "ABB Moskva" ASC | Rusiya Federasiyası | 100.0 | 100.0 | Bankçılıq |
| Beynəlxalq Sığorta Şirkəti | Azərbaycan Respublikası | 100.0 | 100.0 | Sığorta |
| "Azərikard" MMC | Azərbaycan Respublikası | 100.0 | 100.0 | Plastik kartlar |
| "ABB Gürcüstan" | Gürcüstan Respublikası | 75.0 | 75.0 | Bankçılıq |
| Beynəlxalq Lizinq | Azərbaycan Respublikası | 100.0 | 47.6 | Lizinq |
| İnter Peşəkar İdman Klubu | Azərbaycan Respublikası | 100.0 | <20.0 | Futbol komandası |
| **Asılı müəssisələr:** | | | | |
| Bakı Banklararası Valyuta Birjası | Azərbaycan Respublikası | 0.0 | 20.0 | Valyuta mübadiləsi |

2016-cı ilin yanvar ayında Qrup kreditlərin ödənilməsi haqqında müqaviləyə əsasən törəmə müəssisəsi olan "İnter Peşəkar İdman Klubu" MMC-nin səhmlərini bütünlükdə (100%) almışdır. "İnter Peşəkar İdman Klubu" MMC futbol klubudur və əsas aktivi Bakıda yerləşən futbol meydançasından ibarətdir. Alış tarixinə "İnter Peşəkar İdman Klubu" MMC-nin cəmi aktivləri 28,296 min manat təşkil edir.

2016-cı ilin yanvar ayında Qrup kreditlərin ödənilməsi haqqında müqaviləyə əsasən törəmə müəssisəsi olan "Joint Lizinq Kompani" QSC-nin səhmlərini bütünlükdə (100%) almışdır. "Joint Lizinq Kompani" QSC lizinq fəaliyyəti ilə məşğul olur. 2016-cı ilin iyul ayında "Joint Lizinq Kompani" QSC-nin adı dəyişdirilərək "Beynəlxalq Lizinq" QSC olmuşdur. Alış tarixinə "Joint Lizinq Kompani" QSC-nin cəmi aktivləri 37,934 min manat təşkil etmişdir.

Qrupun son nəzarətçi tərəfi Azərbaycan Respublikası hökumətidir.

Bu konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatının buraxılması 28 oktyabr 2016-cı il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmişdir.

## 2. Hazırlanma əsasları

**Mühasibat uçotunun əsasları.** Hazırkı konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatı "Aralıq Maliyyə Hesabatı" adlı 34 saylı MUBS-a uyğun olaraq hazırlanmışdır. Bu konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatı 31 dekabr 2015-ci il tarixinə bitən il üzrə MHBS əsasında hazırlanan illik konsolidə edilmiş maliyyə hesabatları ilə birlikdə istifadə olunmalıdır. Qrupun əməliyyat nəticələri dəyişən bazar şərtləri ilə əlaqədar və onlardan asılı olduğu üçün aralıq dövr üzrə Qrupun əməliyyat nəticələri mütləq şəkildə il üzrə olan nəticələri əks etdirmir.

Bu konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatı illik maliyyə hesabatlarında tələb olunan bütün informasiya və açıqlamaları özündə əks etdirmir. Qrup Maliyyə Hesabatının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq özünün 2015-ci il üçün audit olunan illik konsolidə edilmiş maliyyə hesabatlarına mühasibat uçotu qaydaları, habelə tərkib və ya məbləğdə dəyişməyən hesablar haqqında məlumat kimi təkrar olunan açıqlamaları daxil etməmişdir.

Bu konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatı, başqa qeydlər olmazsa, min Azərbaycan manatı ("AZN") ilə təqdim olunur. Müəyyən maliyyə alətlərinin, eləcə də torpaq və binaların ədalətli dəyərlə qiymətləndirilməsi istisna olmaqla, hazırkı konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatı ilkin dəyər metodu ilə hazırlanmışdır.

Qrupun əməliyyatlarının həyata keçirildiyi valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

| | **30 iyun 2016-cı il** | **31 dekabr 2015-ci il** |
|---|---|---|
| **Valyuta məzənnəsi – AZN** | | |
| 1 ABŞ dolları ("ABŞD") | 1.5394 | 1.5594 |
| 1 Avro | 1.7090 | 1.7046 |

**Fasiləsiz fəaliyyət.** 2014-2015-ci illər ərzində və 2016-cı ilin 1-ci yarısında Azərbaycan dünya neftinin qiymətindəki azalmalar nəticəsində iqtisadiyyatda baş verən bir sıra mənfi dəyişikliklərin təsirinə məruz qaldı. İqtisadiyyatın müxtəlif istiqamətlərdə inkişafını dəstəkləmək, onu beynəlxalq arenaya uyğunlaşdırmaq və ixrac imkanlarını artırmaq, o cümlədən tədiyyə balansı sabitliyini təmin etmək məqsədilə 2015 və 2016-cı illərdə ARMB Azərbaycan manatını digər əsas valyutalara qarşı 100%-dən artıq dərəcədə devalvasiya etmişdir. Bu, iqtisadiyyatın bir çox sahələrində geriləməyə və nəticə etibarı ilə, bank sektorunda problemli kreditlərin məbləğlərinin artmasına səbəb oldu. Qrup fəaliyyət göstərdiyi digər əsas ölkədə - Rusiyada da eyni iqtisadi şəraitə məruz qalmışdır.

2016-cı və 2015-ci illərin 1-ci yarımilliyində Qrup vergilər çıxıldıqdan sonra 322,804 min manat və AZN 196,929 min manat məbləğində zərərə məruz qalmışdır. Mənfi maliyyə nəticələrinin əsas səbəbləri aktivlərin keyfiyyətinin zəifləməsi nəticəsində həm pərakəndə, həm də korporativ kredit portfelləri üzrə kreditin dəyərsizləşməsi üçün ehtiyatların artması, 2015-ci ildə və 2016-cı ilin 1-ci yarısında borcvermə əməliyyatlarının müvəqqəti dayandırılması nəticəsində kredit portfelindəki azalma və 2016-cı ilin 1-ci yarısında Qrupun sahib olduğu müəyyən əmlak vasitələrinin 127,774 min manat məbləğində dəyərsizləşməsi olmuşdur. Bundan əlavə, aktiv və öhdəliklərin faiz dərəcələrindəki qeyri-bərabər dəyişikliklərdən yaranan xalis faiz gəlirindəki azalma 2015-ci ilin maliyyə nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Mürəkkəb bazar şəraitində Qrupun aktivlərinin keyfiyyətindəki davamlı azalma, problemli kreditlərin artması və Qrupun likvidlik mövqeyinin zəifləməsi səbəbindən Azərbaycan Respublikası hökuməti, Qrupun kapital mövqeyini möhkəmləndirmək və onun aktivlərinin keyfiyyətini artırmaq məqsədilə bir sıra tədbirlər görmüşdür. ARMB və Maliyyə Nazirliyi tərəfindən Qrupun aktivlərinin keyfiyyəti və likvidlik mövqeyi üzrə hərtərəfli təhlil aparıldıqdan sonra Azərbaycan Respublikasının Prezidenti Qrupun aktivlərinin sağlamlaşdırılması tədbirləri haqqında 15 iyul 2015-ci il tarixli Fərman imzalamışdır. Fərman və iştirakçı tərəflər arasında imzalanmış digər sənədlərə əsasən, Qrupun problemli aktivləri 2015-2017-ci illər ərzində mərhələli şəkildə dövlətə məxsus "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatına ("Aqrarkredit" QSC) ötürülməlidir. Bütün balans və balansdankənar öhdəliklər daxil olmaqla, ötürülən aktivlər üçün müvafiq əməliyyatların tam dəyərlə aparılması razılaşdırılmışdır. Problemli kreditlərin ötürülməsi proqramının 1-ci hissəsi 2016-cı ildə uğurla yerinə yetirilmişdir. Proqramın 1-ci hissəsi kimi ötürülən aktivlərin məbləği 9,930,000 min manat olmuşdur. 2-ci hissə ilə bağlı hazırda müzakirələr gedir və bu ötürmənin 2016-cı ilin 2-ci yarısı – 2017-ci ilin 1-ci yarısında baş tutacağı gözlənilir.

Proqramın 1-ci hissəsində ötürülən problemli kreditlərin əsas hissəsi xarici valyutalarla ifadə olunmuşdur. Problemli kreditlər müqabilində "Aqrarkredit" QSC tərəfindən Qrupa ödənişlərin manatla edilməsi Qrupun əhəmiyyətli dərəcədə qısa açıq valyuta mövqeyinə sahib olması ilə nəticələndi ki, bu da Qrup üçün böyük valyuta riski yaradır. 30 iyun 2016-cı il tarixinə Qrupun ABŞD üzrə qısa xarici valyuta mövqeyi 5,302,860 min manat, Avro üzrə isə 1,003,233 min manat olmuşdur. 31 dekabr 2015-ci il tarixinə Qrupun qısa xarici valyuta mövqeyi ABŞD üzrə 5,652,033 min manat, Avro üçün 1,354,654 min manatdır. Qrup nəzarət paketinə sahib olan səhmdarla birgə açıq valyuta mövqeyinin hecinqinə dair yekun müzakirələr aparır və bu məsələni 2016-cı ilin sonuna qədər həll etməyi planlaşdırır.

Gələcəkdə əməliyyat rentabelliyini təmin etmək və maliyyə sabitliyini saxlamaq üçün Qrupun rəhbərliyi və səhmdarlar həm pərakəndə, həm də korporativ istiqamətdə Qrupun fəaliyyətini təkmilləşdirməyi planlaşdırırlar. Qrup, həmçinin, xarici borcların restrukturizasiyası və təşkilati strukturun optimallaşdırılması məqsədilə müvafiq strategiya yaratmışdır. Bu plana aşağıdakı addımlar daxildir, lakin onlarla məhdudlaşmır:

- 2016-cı ilin 2-ci yarısı – 2017-ci ilin 1-ci yarısında problemli kreditlərin ötürülməsi proqramının 2-ci hissəsini yekunlaşdırmaq;
- 2016-cı ilin sonuna qədər qısa açıq xarici valyuta mövqeyinin hecinqini həyata keçirmək;
- 2016-2017-ci illərdə Qrupun xarici borclarının restrukturizasiyasını həyata keçirmək;
- Əməliyyat valyutası ilə vəsaitlər cəlb etmək;
- Qrupun və onun ayrı-ayrı müəssisələrinin təşkilati strukturunun optimallaşdırılması proqramını yerinə yetirmək.

Nəzarət paketinə sahib olan səhmdar 2016-cı ilin sonuna qədər Qrupun səhmdar kapitalını 500,000 min manat artırmağı düşünür.

Rəhbərlik düşünür ki, yuxarıda qeyd olunan tədbirlər və nəzarət paketinə sahib olan səhmdarın davamlı maliyyə dəstəyi Qrupun fasiləsiz fəaliyyətini təmin edəcək və müvafiq olaraq, bu konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatı Qrupun yaxın gələcəkdə öz fəaliyyətini davam etdirə biləcəyi ehtimalı əsasında hazırlanmışdır.

## 3. Mühüm mühasibat uçotu siyasətləri

Qrup, aşağıda göstərilən yeni və düzəliş edilmiş Standart və Şərhlərin təsiri istisna olmaqla, bu konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatını hazırlayarkən özünün 31 dekabr 2015-ci il üzrə illik konsolidə olunmuş maliyyə hesabatları üçün tətbiq etdiyi mühasibat uçotu siyasətləri və hesablama metodlarından istifadə etmişdir:

- MHBS 14 *Təxirə salınmış tarif düzəlişləri üzrə hesablar*[1];
- MHBS 11-ə düzəlişlər - *Birgə Əməliyyatlarda İştirak Paylarının Alışının Uçotu*[1];
- MUBS 1-ə düzəlişlər – *Məlumatın açıqlanması üzrə təşəbbüslər*[1];
- MUBS 16 və MUBS 38-ə düzəlişlər – *Məqbul Köhnəlmə və Amortizasiya Metodlarının Aydınlaşdırılması*[1];
- MUBS 27-ə düzəlişlər – *Fərdi Maliyyə Hesabatlarında İştirak Payı Metodu*[1];
- MHBS 10 və MUBS 28-ə düzəlişlər – *İnvestor ilə Asılı müəssisə və ya Birgə Müəssisə arasında Aktivlərin Satışı və ya Ötürülməsi*[1];
- 2012-2014-cü illəri əhatə edən dövr üzrə MHBS-lərə illik düzəlişlər[1].

Yuxarıda qeyd olunan dəyişikliklər konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatlarına əhəmiyyətli dərəcədə təsir göstərmir.

**Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni və düzəliş edilmiş MHBS-lər.** Qrup buraxılmış, lakin hələ qüvvəyə minməmiş aşağıdakı yeni və düzəliş edilmiş MHBS-ləri tətbiq etməmişdir:

- MHBS 9 *Maliyyə alətləri və digər standartlara müvafiq düzəlişlər*[2];
- MHBS 15 *Müştərilərlə Müqavilələr üzrə Gəlirlər və digər standartlara müvafiq düzəlişlər* [2];
- MUBS 12-yə düzəlişlər – *Realizə olunmamış zərərlər üçün təxirə salınmış vergi aktivlərinin tanınması*[1];
- MUBS 7-yə düzəlişlər – *Məlumatın açıqlanması üzrə təşəbbüslər* [1];
- MHBS 16 Lizinq[3].

[1] Daha erkən tətbiqinə icazə verilməklə, 1 yanvar 2017-ci il tarixində başlayan və ya ondan sonrakı illik dövrlər üçün qüvvədədir.
[2] Daha erkən tətbiqinə icazə verilməklə, 1 yanvar 2018-ci il tarixində başlayan və ya ondan sonrakı illik dövrlər üçün qüvvədədir.
[3] *Müştərilərlə Müqavilələr üzrə Gəlirlər* adlı MHBS 15 standartını tətbiq edən müəssisələrdə daha erkən tətbiqinə icazə verilməklə, 1 yanvar 2019-cu il tarixində başlayan və ya ondan sonrakı illik dövrlər üçün qüvvədədir.

**Mühüm mühasibat uçotu mühakimələri və təxminlərlə bağlı qeyri-müəyyənliyin əsas mənbələri.** Bu konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatlarını hazırlayarkən Qrupun mühasibat uçotu qaydalarının tətbiqində istifadə olunan mühüm mühakimələr və təxminlərlə bağlı qeyri-müəyyənliyin əsas mənbələri Qrupun MHBS əsasında hazırlanmış 2015-ci il üzrə illik konsolidə edilmiş maliyyə hesabatları üçün tətbiq olunan mühakimələrə uyğundur.

## 4. Yenidən təsnifləşdirmə

Cari dövrün təqdimatı Qrupun maliyyə vəziyyətini daha düzgün əks etdirdiyindən, 31 dekabr 2015-ci il tarixinə konsolidə edilmiş maliyyə hesabatlarına aşağıdakı yenidən təsnifləşdirmələr aparılmışdır.

| | Əvvəlki dövrdə təqdim olunmuş | Yenidən təsnifləşdirmə məbləği | Yenidən təsnifləşdirilmiş |
|---|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | 5,635,583 | 29,298 | 5,664,881 |
| Digər borc qiymətli kağızları | 29,298 | (29,298) | - |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | 1,800,844 | 350,120 | 2,150,964 |
| Müştəri hesabları | 7,094,114 | (397,355) | 6,696,759 |
| Digər borc alınmış vəsaitlər | 2,262,979 | 47,235 | 2,310,214 |

Cari dövrün təqdimatı Qrupun maliyyə fəaliyyətini daha düzgün əks etdirdiyindən, 2015-ci ilin 1-ci yarımilliyi üzrə konsolidə edilmiş aralıq yığcam maliyyə məlumatı ilə bağlı aşağıdakı yenidən təsnifləşdirmələr aparılmışdır.

| | Əvvəlki dövrdə təqdim olunmuş | Yenidən təsnifləşdirmə məbləği | Yenidən təsnifləşdirilmiş |
|---|---|---|---|
| Faiz gəliri | 380,406 | (21,040) | 359,366 |
| Haqq və komissiya gəliri | 43,025 | 21,040 | 64,065 |

## 5. Pul vəsaitləri və onların ekvivalentləri

| | 30 iyun 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| Kassadakı nağd vəsaitlər | 274,667 | 304,829 |
| Mərkəzi/Milli banklarda yerləşdirilmiş nağd pul vəsaitləri (məcburi ehtiyatlardan başqa) | 348,710 | 1,101,289 |
| Müxbir hesablar və digər banklarda yerləşdirilən overnayt depozitlər | | |
| - Azərbaycan Respublikasında | 139,271 | 298 |
| - Digər ölkələrdə | 1,526,694 | 191,280 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **2,289,342** | **1,597,696** |

30 iyun 2016-cı il tarixinə Qrupun 5 bankda (31 dekabr 2015: 1 bank) 1,937,065 min manat (31 dekabr 2015: 1,064,024 min manat) məbləğində müxbir hesabları və overnayt yerləşdirmələri olmuşdur ki, bunların hər biri da ayrı-ayrılıqda Qrupun kapitalının 10%-dən artıqdır.

## 6. Banklardan və digər maliyyə institutlarından alınmalı vəsaitlər

| | 30 iyun 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| Azərbaycan Respublikasının Mərkəzi Bankında yerləşdirilmiş müddətli depozitlər | 3,018,333 | - |
| Digər banklarda yerləşdirilmiş müddətli depozitlər | 297,029 | 163,062 |
| Çıxılsın: Dəyərsizləşmə ehtiyatı | (29,622) | (61,034) |
| **Cəmi banklardan və digər maliyyə institutlarından alınmalı vəsaitlər** | **3,285,740** | **102,028** |

## 7. Müştərilərə verilmiş kreditlər

| | 30 iyun 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| Korporativ kreditlər | 4,606,303 | 5,317,260 |
| Fiziki şəxslərə verilmiş kreditlər – istehlak kreditləri | 671,581 | 686,600 |
| Fiziki şəxslərə verilmiş kreditlər – ipoteka kreditləri | 602,204 | 395,307 |
| Fiziki şəxslərə verilmiş kreditlər – avtomobil kreditləri | 58,543 | 60,262 |
| Fiziki şəxslərə verilmiş kreditlər – işçilərə verilmiş kreditlər | 12,280 | 13,107 |
| Fiziki şəxslərə verilmiş kreditlər – digər məqsədlər | 34,694 | 114,138 |
| | 5,985,605 | 6,586,674 |
| Çıxılsın: kredit dəyərsizləşməsi üçün ehtiyat | (849,836) | (921,793) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **5,135,769** | **5,664,881** |

30 iyun 2016-cı il tarixinə Qrup 13 müştəriyə (31 dekabr 2015: 12 müştəri) 3,065,750 min manat (31 dekabr 2015: 3,487,801 min manat) məbləğində kredit vermişdir ki, bu da ayrı-ayrılıqda Qrupun kapitalının 10%-dən artıq olmuşdur.

2016-cı ilin 1-ci yarımilliyi və 2015-ci ilin 1-ci yarımilliyi üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatdakı hərəkətlər 14 saylı Qeyddə açıqlanır.

## 8. Satılabilən investisiyalar

2016-cı ilin birinci yarısında Qrup illik faiz dərəcəsi 7.5%-9.5% arasında dəyişən və ödəniş müddəti 2016-cı ilin ikinci yarımilliyində və 2017-ci ilin 1-ci yarımilliyində bitən Azərbaycan Respublikası Maliyyə Nazirliyinin borc qiymətli kağızlarını almışdır.

## 9. Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər

| | 30 iyun 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| Digər bankların qısamüddətli yerləşdirmələri | 1,359,806 | 1,783,145 |
| Digər bankların müxbir hesabları və overnayt yerləşdirmələri | 309,619 | 367,819 |
| **Cəmi banklara və digər maliyyə institutlarına ödənilməli vəsaitlər** | **1,669,425** | **2,150,964** |

30 iyun 2016-cı il tarixinə Qrupun 2 bankda və maliyyə institutlarında (31 dekabr 2015-ci il: 7 bank və maliyyə institutunda) ümumilikdə 1,063,417 min manat məbləğində (31 dekabr 2015-ci il: 1,059,814 min manat) qısamüddətli depozitləri olmuşdur ki, bu da ayrı-ayrılıqda Qrupun kapitalının 10%-dən artıqdır.

## 10. Müştəri hesabları

| | 30 iyun 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| **Hüquqi şəxslər** | | |
| - Cari/hesablaşma hesabları | 3,633,668 | 3,877,201 |
| - Müddətli depozitlər | 1,427,300 | 102,492 |
| - Məhdud istifadəli müştəri depozitləri | 331,713 | 35,703 |
| | 5,392,681 | 4,015,396 |
| **Fiziki şəxslər** | | |
| - Cari/tələbli hesablar | 556,989 | 518,721 |
| - Müddətli depozitlər | 1,277,718 | 1,727,677 |
| - Məhdud istifadəli müştəri depozitləri | 110,702 | 158,691 |
| | 1,945,409 | 2,405,089 |
| **Nazirliklər və digər dövlət qurumları** | | |
| - Cari/hesablaşma hesabları | 68,364 | 162,585 |
| - Müştəri depozitləri | 539,968 | 9,114 |
| - Məhdud istifadəli müştəri depozitləri | 229,020 | 104,575 |
| | 837,352 | 276,274 |
| **Cəmi müştəri hesabları** | **8,175,442** | **6,696,759** |

30 iyun 2016-cı il tarixinə Qrupun 12 müştəri (31 dekabr 2015-ci il: 11 müştəri) ilə ümumilikdə 4,893,564 min manat məbləğində (31 dekabr 2015-ci il: 2,830,085 min manat) depozitləri olmuşdur ki, bu da ayrı-ayrılıqda Qrupun kapitalının 10%-dən artıqdır.

30 iyun 2016-cı il tarixinə 671,435 min manat məbləğində (31 dekabr 2015-ci il: 298,969 min manat) məhdud istifadəli müştəri depozitləri Qrup tərəfindən müştərilərə verilmiş kreditlər üçün təminat kimi saxlanılan müştəri hesabları üzrə qalıq vəsaitləri və Qrupun müştərilər adından təqdim etdiyi idxal akkreditivləri əsasında geri qaytarılmayan öhdəlikləri əks etdirir. 30 iyun 2016 və 31 dekabr 2015-ci il tarixinə qalan akkreditivlər və zəmanətlər üzrə məlumat 17 saylı qeyddə açıqlanır.

## 11. Buraxılmış borc qiymətli kağızları

| | 30 iyun 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| Avroistiqrazlar | 769,293 | 878,524 |
| Depozit sertifikatları | 18,725 | 15,130 |
| **Cəmi buraxılmış borc qiymətli kağızları** | **788,018** | **893,654** |

9 iyun 2014-cü il tarixdə Qrup 2019-cu ilin iyun ayında illik 5.63% ilə ödənilməli olan 500,000 min ABŞ dolları məbləğində Avroistiqrazlar buraxmışdır. Bu istiqrazlar üzrə faiz yarımillik əsasda ödənilir. İstiqrazların İrlandiya Fond Birjasının tənzimlənən bazarlarında və ya 2004/39/EC Direktivinin əhatə etdiyi digər bazarlarda satışına və ya Avropa İqtisadi Zonasına üzv Dövlətlərin ictimaiyyətinə təqdim edilməsinə icazə verilir. Qrup Avroistiqrazları ilə əlaqədar borc müqavilələrində qeyd olunan bəzi maliyyə şərtlərinə əməl etmək öhdəliyi daşıyır. Qrupun bu maliyyə şərtlərinə əməl etməsi 17 saylı qeyddə müzakirə olunur.

## 12. Digər borc alınmış vəsaitlər

| | 30 iyun 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| Digər maliyyə institutlarından alınmış müddətli borc vəsaitləri | 1,794,979 | 1,786,302 |
| Dövlət təşkilatlarından alınmış müddətli borc vəsaitləri | 189,867 | 203,435 |
| Sindikatlaşdırılmış kredit | - | 320,477 |
| **Cəmi digər borc alınmış vəsaitlər** | **1,984,846** | **2,310,214** |

30 iyun 2016-cı il tarixinə Qrup 7 kreditordan (31 dekabr 2015-ci il: 7 kreditor) ümumilikdə 1,787,834 min manat (31 dekabr 2015-ci il: 2,088,825 min manat) məbləğində uzunmüddətli kreditlər almışdır ki, bu da ayı-ayrılıqda Qrupun kapitalının 10%-dən artıq olmuşdur.

30 iyun 2016-cı il tarixinə Qrup digər maliyyə institutlarından alınmış bəzi və müddətli borc vəsaitləri üçün müəyyən maliyyə şərtlərini yerinə yetirmək öhdəliyi daşıyır. Qrupun bu maliyyə şərtlərini yerinə yetirməsi daha sonra 17 saylı qeyddə müzakirə olunur.

## 13. Seqment hesabatı

Resursların bölüşdürülməsi və seqment fəaliyyətinin qiymətləndirilməsi məqsədləri üçün əməliyyat qərarlarının verilməsinə cavabdeh olan rəhbərliyə məruzə edilən məlumat təqdim olunan və ya göstərilən xidmətlərin növünə görə çatdırılır.

Seqmentləşmənin əsasları və ya seqment mənfəət və ya zərərinin qiymətləndirilməsi əsasları üzrə ötən ilin maliyyə məlumatından fərqlər yoxdur.

## 13. Seqment hesabatı (davamı)

2016-cı ilin birinci yarımillik üzrə Qrupun hesabat olunan seqmentləri üçün seqment məlumatı aşağıda təqdim olunur:

| | Bank | Sığorta | Kart prosessinqi | Cəmi |
|---|---|---|---|---|
| Faiz gəliri | 223,019 | 361 | 427 | 223,807 |
| Faiz xərci | (277,402) | (1) | - | (277,403) |
| **Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərlərindən əvvəl xalis faiz (xərci)/gəliri** | **(54,383)** | **360** | **427** | **(53,596)** |
| Faiz hesablanan aktivlər və öhdəliklərin ilkin tanınması üzrə düzəlişlər | 7,987 | - | - | 7,987 |
| Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri | (18,648) | (1,310) | - | (19,958) |
| **Xalis faiz (xərci)/gəliri** | **(65,044)** | **(950)** | **427** | **(65,567)** |
| Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeyd olunan maliyyə aktivləri üzrə xalis gəlir | 2,299 | - | - | 2,299 |
| Xarici valyuta ilə ticarət əməliyyatları üzrə gəlirlər | 46,827 | - | - | 46,827 |
| Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə zərərlər | (72,631) | (214) | (16) | (72,861) |
| Haqq və komissiya gəliri | 53,129 | (33) | 10,567 | 63,663 |
| Haqq və komissiya xərci | (5,685) | (991) | (35) | (6,711) |
| Digər ehtiyatlar | (5,293) | - | - | (5,293) |
| Əmlak və avadanlığın dəyərsizləşməsi | (127,774) | - | - | (127,774) |
| Digər əməliyyat gəliri | 1,579 | 2,104 | - | 3,683 |
| **Əməliyyat (zərərləri)/gəlirləri** | **(172,593)** | **(84)** | **10,943** | **(161,734)** |
| Əməliyyat xərcləri | (70,173) | (1,529) | (10,098) | (81,800) |
| **Mənfəət vergisindən əvvəl (zərər)/mənfəət** | **(242,766)** | **(1,613)** | **845** | **(243,534)** |
| Mənfəət vergisi | (76,383) | (344) | (2,543) | (79,270) |
| **Dövr üzrə xalis zərər** | **(319,149)** | **(1,957)** | **(1,698)** | **(322,804)** |
| Seqment aktivləri | 14,137,258 | 16,732 | 38,390 | 14,192,380 |
| Seqment öhdəlikləri | 13,613,592 | 5,822 | 4,019 | 13,623,433 |
| **Digər seqment maddələri** | | | | |
| Köhnəlmə xərci | 6,487 | 59 | 3,193 | 9,739 |
| Kapital xərcləri | 15,156 | 4 | 694 | 15,854 |

## 13. Seqment hesabatı (davamı)

2015-ci ilin birinci yarımillik üzrə Qrupun hesabat olunan seqmentləri üçün seqment məlumatı aşağıda təqdim olunur:

| | Bank | Sığorta | Kart prosessinqi | Cəmi |
|---|---|---|---|---|
| Faiz gəliri | 358,213 | 723 | 430 | 359,366 |
| Faiz xərci | (264,858) | - | - | (264,858) |
| **Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərlərindən əvvəl xalis faiz gəliri** | **93,355** | **723** | **430** | **94,508** |
| Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri | (327,153) | (1,121) | - | (328,274) |
| **Xalis faiz (xərci)/gəliri** | **(233,798)** | **(398)** | **430** | **(233,766)** |
| Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeyd olunan maliyyə aktivləri üzrə xalis gəlir | (2,420) | - | - | (2,420) |
| Xarici valyuta ilə ticarət əməliyyatları üzrə gəlirlər | 16,718 | - | - | 16,718 |
| Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə zərərlər | (11,322) | (190) | 7 | (11,505) |
| Haqq və komissiya gəliri | 50,615 | - | 13,450 | 64,065 |
| Haqq və komissiya xərci | (8,389) | (764) | (49) | (9,202) |
| Digər ehtiyatlar | (5,130) | (99) | - | (5,229) |
| Digər əməliyyat gəliri | 1,000 | 3,921 | 115 | 5,036 |
| **Əməliyyat (zərərləri)/gəlirləri** | **(192,726)** | **2,470** | **13,953** | **(176,303)** |
| Əməliyyat xərcləri | (58,582) | (2,377) | (4,489) | (65,448) |
| **Mənfəət vergisindən əvvəl (zərər)/mənfəət** | **(251,308)** | **93** | **9,464** | **(241,751)** |
| Mənfəət vergisi | 46,711 | (19) | (1,870) | 44,822 |
| **Dövr üzrə xalis (zərər)/mənfəət** | **(204,597)** | **74** | **7,594** | **(196,929)** |
| Seqment aktivləri | 13,592,317 | 22,229 | 42,729 | 13,657,275 |
| Seqment öhdəlikləri | 12,927,084 | 9,464 | 6,687 | 12,943,235 |
| **Digər seqment maddələri** | | | | |
| Köhnəlmə xərci | 7,644 | 55 | 877 | 8,576 |
| Kapital xərcləri | 43,208 | 48 | 1 | 43,257 |

## 14. Dəyərsizləşmə zərərləri üçün ehtiyat və digər ehtiyatlar

Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyatda və digər ehtiyatlarda hərəkətlər aşağıdakı kimi olmuşdur:

| | Banklardan və digər maliyyə institutlarından alınacaq vəsaitlər | Müştərilərə verilmiş kreditlər | Digər ehtiyatlar | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2015-ci il** | **10,295** | **849,804** | **7,526** | **867,625** |
| Tanınmış əlavə ehtiyatlar | 24,839 | 303,435 | 5,229 | 333,503 |
| Xarici valyuta məzənnəsində fərqin təsiri | - | 61,184 | - | 61,184 |
| **30 iyun 2015-ci il** | **35,134** | **1,214,423** | **12,755** | **1,262,312** |
| **1 yanvar 2016-cı il** | **61,034** | **921,793** | **6,850** | **989,677** |
| Tanınmış əlavə ehtiyatlar | 1,871 | 18,087 | 5,293 | 25,251 |
| Xarici valyuta məzənnəsində fərqin təsiri | - | 26,425 | 988 | 27,413 |
| Aqrarkredit QSC-yə satış | (33,283) | (116,469) | - | (149,752) |
| **30 iyun 2016-cı il** | **29,622** | **849,836** | **13,131** | **892,589** |

## 15. Əlavə ödənilmiş kapital

2016-cı ilin birinci yarımilliyində Qrup 2015-ci ildə başladığı problemli aktivlərin ötürülməsi üzrə əməliyyatı yekunlaşdırmışdır. Aqrarkredit QSC-nin son nəzarətçi tərəfi Maliyyə Nazirliyi olduğundan Aqrarkredit QSC-dən alınmış və ya alınacaq vəsaitlərin ötürülmüş kreditlərin balans dəyərindən 199,057 min manat məbləğində artıq olan hissəsi (vergi çıxılmaqla) əlavə ödənilmiş kapital hesabına kreditləşdirilmişdir. 2016-cı ildə Aqrarkredit QSC-dən alınmış vəsaitlər 4,580,000 min manat təşkil etmişdir.

## 16. Kapitalın idarə edilməsi

Qrupun kapitalının idarə olunmasında məqsəd (i) Maliyyə Bazarlarına Nəzarət Palatasının ("MBNP") kapitalın məbləği ilə bağlı müəyyən etdiyi tələblərə riayət edilməsini (ii) Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin və (iii) Bazel I sazişinə uyğun olaraq kapitalın adekvatlığı əmsalının ən azı 10% olması üçün kifayət qədər kapital bazasının saxlanılmasını təmin etməkdir. MBNP-nin müəyyən etdiyi kapital adekvatlığı əmsallarına riayət edilməsinə Audit Komitəsinin Rəhbəri, İdarə Heyəti Sədrinin Birinci müavini, Baş maliyyə direktoru, Daxili Audit Departamenti, Mühasibat Uçotu və Büdcə Departamentinin rəhbəri tərəfindən baxılmış və təsdiqlənmiş müvafiq hesablamalardan ibarət aylıq hesabatlar vasitəsilə nəzarət edilir. Kapitalın idarə olunmasının digər məqsədləri mütəmadi olaraq qiymətləndirilir.

MBNP-nin kapitalın məbləği ilə bağlı mövcud tələblərinə görə banklar: (a) qanunla müəyyən edilmiş məcmu minimum kapital məbləğini 50,000 min manat (31 dekabr 2015-ci il: 50,000 min manat) həcmində saxlamalı; (b) kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbətini ("kapital adekvatlığı əmsalı") minimum 10% (31 dekabr 2015-ci il: 10%) və (c) 1-ci dərəcəli kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbətini ("1-ci dərəcəli kapital adekvatlığı əmsalı") minimum 5% (31 dekabr 2015-ci il: 5%) və ya yuxarı həcmdə saxlamalıdır.

## 16. Kapitalın idarə edilməsi (davamı)

Qrup və Bank kredit müqaviləsinin tələb olunan maliyyə şərtlərinə, həmçinin Kapitalın Ölçülməsi və Kapital Standartlarına dair Beynəlxalq Konvergensiya (aprel 1998-ci il tarixində yenilənmiş) və Bazel Akkordun tələbləri əsasında hesablanmış kapital adekvatlığı səviyyəsinə riayət etməlidirlər. Qrupun Bazel 1 Sazişinə əsasən hesablanmış və konsolidə edilmiş maliyyə hesabatlarında əks olunmuş kapitalının tərkibi aşağıdakı kimidir:

| | 30 iyun 2016-cı il | 31 dekabr 2015-ci il |
|---|---|---|
| **1-ci dərəcəli kapital** | | |
| Səhmdar kapitalı | 641,287 | 641,287 |
| Əlavə ödənilmiş kapital (vergi çıxılmaqla) | 999,028 | 799,971 |
| Yığılmış zərərlər | (1,067,463) | (744,750) |
| Qeyri-nəzarət payı | 4,920 | 4,440 |
| Çıxılsın: qeyri-maddi aktivlər | (14,547) | (9,230) |
| **Cəmi müəyyən edilmiş 1-ci dərəcəli kapital** | **563,225** | **691,718** |
| **2-ci dərəcəli kapital** | | |
| Ehtiyatlar (cəmi risk dərəcəsi üzrə ölçülmüş aktivlərin 1.25 %-i) | 96,760 | 82,389 |
| Əmlakın yenidən qiymətləndirilməsi ehtiyatı | 40,177 | 40,740 |
| Subordinasiya borcu (1-ci dərəcəli kapitalın 50%-nə qədər) | 281,613 | 345,859 |
| **Cəmi müəyyən edilmiş 2-ci dərəcəli kapital (1-ci dərəcəli kapitalın 100% həcmindən çox olmamaqla)** | **418,550** | **468,988** |
| Çıxılsın: kapitalda iştirak payı üzrə investisiyalar | - | (187) |
| Cəmi minimum kapitalı | **981,775** | **1,160,519** |
| **Risk dərəcəsi üzrə ölçülmüş aktivlər** | | |
| Balans üzrə | 5,834,915 | 4,874,979 |
| Balansdankənar | 1,905,861 | 1,716,125 |
| **Cəmi risk dərəcəsi üzrə ölçülmüş aktivlər** | **7,740,776** | **6,591,104** |
| **Kapital əmsalları** | | |
| 1-ci dərəcəli kapital | 7.28% | 10.49% |
| Cəmi kapital | 12.68% | 17.61% |

Bankın kapitalının idarə edilməsi prosedurunun mühüm bir hissəsi kimi Maliyyə Direktoru mütəmadi olaraq xarici kapital tələblərinin monitorinqini aparır və hazırlanmış monitorinq hesabatları Audit Komitəsinin rəhbəri, İdarə Heyətinin Sədri və Daxili Audit Departamentinin Direktoru tərəfindən nəzərdən keçirilir və təsdiqlənir. 30 iyun 2016-cı il tarixinə Qrup və Bank bütün xarici kapital tələblərini yerinə yetirmişdir.

## 17. Şərti öhdəliklər və təəhhüdlər

***Məhkəmə prosesləri*** – Qrup vaxtaşırı olaraq və adi fəaliyyəti müddətində müştərilər və müqavilə tərəflərinin irəli sürdüyü iddialarla üzləşir. Rəhbərlik düşünür ki, heç bir hesablanmamış mühüm itkilər yaranmayacaq və bu səbəbdən də hazırkı konsolidə edilmiş yığcam aralıq maliyyə hesabatlarında ehtiyatlar nəzərdə tutulmamışdır.

***Vergiqoyma*** – Azərbaycan Respublikasının ticarət, o cümlədən vergi qanunvericiliyi birdən çox təfsirə yol verə bilər. Bundan əlavə, biznes fəaliyyəti ilə əlaqədar olaraq vergi orqanlarının öz mülahizələrinə görə sərbəst qərar vermələri riski də mövcuddur. Biznes fəaliyyəti ilə əlaqədar Qrup rəhbərliyinin mülahizələrinə əsaslanan müəyyən mövqe vergi orqanları tərəfindən birmənalı qarşılanmadıqda, Qrupa əlavə vergilər, cərimələr və faizlər hesablana bilər.

Belə qeyri-müəyyənlik halları maliyyə alətlərinin qiymətləndirilməsi, dəyərsizləşmə zərəri üçün ehtiyatların qiymətləndirilməsi və sövdələşmələrin bazar qiymətinin müəyyənləşdirilməsi ilə bağlı ola bilər. Bundan başqa, belə qeyri-müəyyənlik vergiyə cəlb olunan mənfəətin natamam hesablanması olaraq ehtiyat üzrə müvəqqəti fərqin qiymətləndirilməsi, habelə müştərilərə verilmiş kreditlər və debitor borcları ilə bağlı dəyərsizləşmə üzrə zərər üçün ehtiyatların geri qaytarılması ilə də bağlı ola bilər. Qrupun rəhbərliyi ödəniləcək vergi məbləğlərinin hesablandığını düşünür, buna görə də, konsolidə edilmiş yığcam aralıq maliyyə hesabatlarında heç bir ehtiyat nəzərdə tutulmamışdır.

Ümumiyyətlə, vergi ödəyiciləri audit ilindən əvvəlki üç təqvim ili üzrə vergi auditindən keçməlidirlər. Lakin tamamlanmış audit yoxlamaları, aşağı səviyyəli vergi orqanlarının əldə etdiyi vergi auditi nəticələrini yoxlamaq məqsədilə yuxarı səviyyəli vergi orqanları tərəfindən həyata keçirilən sonrakı əlavə audit yoxlamalarının olması ehtimalını istisna etmir. Cinayət işinin araşdırılması zamanı iddia müddəti məhkəmənin qərarına əsasən yeddi ilədək uzadıla bilər.

***Fəaliyyət mühiti*** – Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrin bazar mühiti inkişaf etmiş ölkələrlə müqayisədə müxtəlif risklərə, o cümlədən iqtisadi, siyasi və sosial, habelə, hüquqi və qanunvericilik ilə bağlı risklərə daha çox məruz qalır. Azərbaycanda biznes fəaliyyətinə təsir edən qanun və qaydalar sürətlə dəyişməkdədir, vergi qanunvericiliyi və tənzimləyici baza müxtəlif formada şərh olunur. Azərbaycanın gələcək iqtisadi sabitliyinə dövlət tərəfindən aparılan iqtisadi, maliyyə və monetar tədbirlər, eləcə də islahatlar və yeniliklər mühüm təsir göstərir.

Azərbaycan neft və qaz məhsullarının iri istehsalçısı və ixracatçısı olduğuna görə ölkə iqtisadiyyatı, xüsusi olaraq, dünya bazarlarının neft və qaz qiymətlərinə qarşı həssasdır. 2014-2015-ci illər ərzində, eləcə də 2016-cı ilin 1-ci rübündə neftin qiymətləri əhəmiyyətli dərəcədə azaldı. Nəticə etibarı ilə, 2015-ci il ərzində və 2016-cı ilin birinci yarımilliyində Azərbaycan manatı ABŞ dollarına və digər əsas valyutalara qarşı devalvasiya olundu. Nəticədə, 2015-ci ilin dekabr ayında Azərbaycan Respublikasının Mərkəzi Bankı üzən məzənnə siyasətinə keçdiyini elan etdi. 2016-cı ilin yanvar ayında Standard & Poor's beynəlxalq kredit agentliyi uzunmüddətli və qısamüddətli xarici və milli valyuta üzrə suveren reytinqləri spekulyativ səviyyəyə qədər azaltmışdır. 2016-cı ilin birinci yarımilliyində Azərbaycan Respublikası Mərkəzi Bankı yenidən maliyyələşdirmə dərəcəsi tədricən 3%-dən 15%-dək artırmışdır.

Bu hadisələr bank sisteminin likvidliyinə mənfi təsir göstərmiş və kredit şərtlərinin çətinləşməsinə səbəb olmuşdur. İqtisadi inkişaf, kapitala çıxış və kapitalın cəlb edilməsi dəyəri ilə bağlı qeyri-müəyyənlik davam etməkdədir və bu, problemli kreditlərin sayının artması və kredit təminatı dəyərinin azalması nəticəsində kredit portfeli üzrə keyfiyyətin zəifləməsi, eləcə də investisiya qiymətli kağızları üzrə hazırda müəyyən edilə bilməyən zərərlər daxil olmaqla, Qrupun gələcək nəticələrinə, maliyyə mövqeyinə və biznes planlarına mənfi təsir göstərə bilər.

Azərbaycan hökuməti cari iqtisadi çətinliklərin aradan qaldırılması məqsədilə islahatların sürətləndirilməsi və bank sisteminə dəstək üçün planlar bəyan etmişdir. Qrupun rəhbərliyi mövcud mühitdəki bu dəyişiklikləri izləyir və proqnozlaşdırıla bilən gələcəkdə Qrupun fəaliyyətini davam və inkişaf etdirmək üçün vacib hesab etdiyi qabaqlayıcı tədbirləri həyata keçirir.

***Maliyyə şərtlərinə əməletmə*** – Bank müxtəlif maliyyə razılaşmaları və analoji sövdələşmələr üzrə bəzi maliyyə və biznes şərtlərini yerinə yetirmək öhdəliyi daşıyır. Bu şərtlərin yerinə yetirilməməsi Qrup üçün mənfi nəticələrə, o cümlədən defolt hallarının bəyan edilməsinə, əlaqəli borcların geri tələb edilməsinə, maliyyə razılaşmaları üzrə təhlükəsizliyin və çarpaz defoltun təmin edilməsinə gətirib çıxara bilər. 30 iyun 2016-cı il tarixinə Qrup maliyyə razılaşmalarında qeyd olunan bütün maliyyə şərtlərini yerinə yetirmişdir.

## 17. Şərti öhdəliklər və təəhhüdlər (davamı)

**ARMB-nın əmsallarına əməletmə.** ARMB banklardan yerli maliyyə hesabatları əsasında hesablanmış bəzi prudensial əmsalların saxlanmasını tələb edir. Bank nə 30 iyun 2016-cı il tarixinə, nə də 31 dekabr 2015-ci il tarixinə yerli qanunvericilikdə nəzərdə tutulan bəzi əmsalları tam yerinə yetirməmişdir. Pozuntular dövlətə məxsus əlaqəli tərəf olan müəssisələrlə böyük həcmdə əməliyyatların aparılması nəticəsində yaranmışdır. Bank hər ay ARMB-a prudensial hesabatlar hazırlamış və tənzimləyici orqan tərəfindən əlavə sanksiyalar tətbiq edilməyən yuxarıdakı pozuntuları qeyd etmişdir. Bank tənzimləyici orqanla mütəmadi danışıqlar aparır. Yerli qanunvericilik tələblərinə görə əmsalların pozulması üçün ən pis hal bank lisenziyasının geri alınmasıdır. Bankın dövlət müəssisəsi olduğunu və yuxarıda qeyd olunan digər faktları nəzərə alaraq, rəhbərlik hesab edir ki, Bank yaxın gələcəkdə tənzimləyici orqan tərəfindən heç bir sanksiyalarla üzləşməyəcək.

30 iyun 2016-cı il və 31 dekabr 2015-ci tarixlərinə şərti öhdəliklər aşağıdakılardan ibarətdir:

| | **30 iyun 2016-cı il** | **31 dekabr 2015-ci il** |
|---|---|---|
| İdxal akkreditivləri | 544,459 | 349,245 |
| Verilmiş zəmanətlər | 1,788,048 | 1,504,316 |
| Kreditin verilməsi və istifadə edilməmiş kredit xətləri üzrə öhdəliklər | 93,548 | 93,569 |
| **Cəmi kreditlərlə bağlı öhdəliklər** | **2,426,055** | **1,947,130** |

30 iyun 2016-cı il tarixinə, Qrupun 5 müəssisəyə verilmiş cəmi idxal akkreditivləri 1,326,550 min manat məbləğində və ya ümumi idxal akkreditivlərinin 90.9% həcmində olmuşdur (31 dekabr 2015-ci il: 5 müəssisəyə verilmiş 328,651 min manat məbləğində idxal akkreditivləri və ya cəmi idxal akkreditivlərinin 94.0% həcmində).

2016-cı ilin birinci yarımilliyinə və dekabr 2015-ci il tarixlərinə digər ehtiyatlarda hərəkətlər 14 saylı qeyddə açıqlanır.

## 18. Ədalətli dəyər

MHBS 13 ədalətli dəyəri qiymətləndirmə tarixində bazar iştirakçıları arasındakı əməliyyat üzrə aktivin satılması üçün alınmış və ya öhdəliyin ötürülməsi üçün ödənilmiş qiymət kimi müəyyən edir.

**Qiymətləndirmə mexanizmləri.** Qrup maliyyə alətlərinin ədalətli dəyərlərini müəyyən etmək üçün bir sıra metodologiyalardan istifadə edir və bununla bağlı müəyyən olunmuş alətlər üçün fəal bazarlarda müşahidə edilə bilən qiymətlər yoxdur. Bu mexanizmlərə aşağıdakılar aiddir: oxşar alətlər üçün müşahidə edilə bilən qiymətlərə əsaslanan nisbi dəyər metodologiyası; aktiv və ya öhdəlikdən gələcək pul daxilolmalarının əldə edildiyi hesablanmış və daha sonra risk üzrə düzəliş edilmiş faiz dərəcəsini istifadə etməklə diskontlaşdırılmış ilkin dəyər yanaşmaları.

Bu qiymətləndirmə mexanizmlərinə dair mühüm məlumatlar aşağıda sadalanır. Qiymətləndirmə mexanizmlərindən istifadə edərkən, seçilmiş qiymətləndirmə modeli və pul daxilolmalarının məbləği və vaxtı, diskont dərəcələri, kredit riski kimi amillərə dair ehtimallar ədalətli dəyərə mühüm təsir edə bilər.

***Sabit gəlir və kapital qiymətli kağızları*** -bu qiymətli kağızlar üçün adətən bəyan edilmiş bazar qiymətləri mövcud olur.

***Faiz dərəcələri*** - bu hesabat tarixinə qüvvədə olan standart faiz dərəcələri, istiqraz və fyuçers bazarlarında bəyan olunan faiz dərəcələridir.

***Xarici valyuta məzənnələri*** - bu əsas valyuta ilə ifadə edilən forvard və fyuçers müqavilələri üçün müşahidə edilə bilən bazarlardır.

## 18. Ədalətli dəyər (davamı)

Düzgün ədalətli dəyəri müəyyən etmək üçün, Rəhbərlik yuxarıdakı mənbələrdən toplanan qiymət məlumatına qiymətləndirmə ilə bağlı düzəlişləri tətbiq edir. Bundan əlavə, Qrup davamlı olaraq tətbiq edilən istənilən modelin məqsədə uyğunluğunu qiymətləndirir

**Maliyyə aktivləri və öhdəlikləri.** Aşağıdakı maliyyə alətlərinin ədalətli dəyərlərini hesablamaq üçün aşağıdakı metod və fərziyyələr tətbiq edilmişdir:

- Pul vəsaitləri və ARMB-dakı qalıq vəsaitlər, habelə ARMB-da yerləşdirilmiş məcburi ehtiyatlar kimi aktivlər, məhdudiyyətin mövcudluğu və qısa müddətli olması səbəbindən balans dəyərinin onun ədalətli dəyəri üçün düzgün təxmin olduğu ehtimal edilir.
- Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə tanınan maliyyə aktivləri və Satılabilən maliyyə aktivlərindən ibarət bəyan edilmiş ticarət qiymətli kağızları və derivativ maliyyə alətlərinin ədalətli dəyərləri hesabat tarixində bəyan edilmiş fəal bazar qiymətləri əsasında müəyyən olunur.
- Müştərilərə verilmiş overdraft kreditlərinin ədalətli dəyərinin onların balans dəyərini əks etdirməsi ehtimal edilir. Digər kreditlərin ədalətli dəyəri isə hesablanmış ədalətli dəyər məbləğlərindən dəyərsizləşmə ehtiyatını çıxmaqla hesabat dövrünün sonunda oxşar kreditlər üçün təklif edilən bazar dərəcələrini tətbiq etməklə hesablanır.
- Digər maliyyə aktivləri və öhdəlikləri əsasən qısamüddətli debitor və kreditor borclardan ibarət olduğundan balans dəyərinin onların ədalətli dəyəri üçün düzgün təxmin olduğu ehtimal edilir.
- Müddətli depozitlərin (müştəri hesablarına və banklara ödənilməli vəsaitlərə daxil edilən) ədalətli dəyəri hesabat dövrünün sonunda oxşar depozitlər üçün təklif edilən bazar dərəcələrini tətbiq etməklə hesablanır. Cari müştəri hesablarının balans dəyərinin, belə öhdəliklərin qısamüddətli və onlarla bağlı tələblərin olması səbəbindən onların ədalətli dəyərləri üçün düzgün təxmin olduğu ehtimal edilir.
- Buraxılmış borc qiymətli kağızlarının, Rusiya rublu ilə buraxılmış istiqrazların və subordinasiya borcunun ədalətli dəyəri bəyan olunmuş bazar qiymətlərinə əsaslanır. Belə qiymətləri əldə etmək mümkün olmadıqda, ədalətli dəyər oxşar qiymətli kağızlar üçün bazar faiz dərəcələrindən istifadə etməklə diskontlaşdırılmış gözlənilən pul daxilolmalarına və ya bazar payı bəyan edilən vəsaitlərə əsaslanır.

**Qiymətləndirmə iyerarxiyası.** Maliyyə alətləri giriş məlumatlarının müşahidə edilməsindən asılı olaraq açıqlama məqsədləri üçün 3 səviyyəli ədalətli dəyər iyerarxiyasına bölünür:

- Fəal bazarda bəyan olunmuş qiymətlər (Səviyyə 1) – Belə qiymətləndirmə Qrupun müəyyən olunan aktivlər və öhdəliklər üçün daxil ola bildiyi fəal bazarlarda bəyan edilmiş qiymətlərə əsaslanır. Bu maliyyə alətlərinə qiymətləndirmə düzəlişləri və blok güzəştləri şamil olunmur. Qiymətləndirmələr fəal bazarda açıq şəkildə və daim mövcud olan bəyan edilmiş qiymətlərə əsaslandığından, bu məhsulların qiymətləndirməsi mühüm mühakimə tələb etmir.
- Müşahidə edilən bilən məlumatları tətbiq edən qiymətləndirmə mexanizmləri (Səviyyə 2) – Qiymətləndirmələr birbaşa və ya dolayısı ilə müşahidə edilə bilən bütün əhəmiyyətli giriş məlumatlarının olduğu məlumatlara əsaslanır və bazarda adi əməliyyatlar üçün bir və ya bir neçə müşahidə edilə bilən bazar qiymətlərinə əsaslanan qiymətləndirmələr isə həqiqi hesab olunmur.
- Müşahidə edilən bazar məlumatından başqa digər məlumatları özündə birləşdirən qiymətləndirmə mexanizmləri (Səviyyə 3) – Qiymətləndirmələr müşahidə edilməyən məlumatlara əsaslanır və ümumi ədalətli dəyərin qiymətləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

## 18. Ədalətli dəyər (davamı)

**Qrupun dövri olaraq ədalətli dəyərlə ölçülən maliyyə aktivləri və maliyyə öhdəliklərinin ədalətli dəyəri.** Qrupun maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin bəziləri hər hesabat tarixinin sonunda ədalətli dəyərlə ölçülür. Aşağıdakı cədvəl bu maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin ədalətli dəyərinin necə müəyyən edildiyinə dair məlumatı əks etdirir.

| Maliyyə aktivləri/ Maliyyə öhdəlikləri | Ədalətli dəyər 30 iyun 2016-cı il | Ədalətli dəyər 31 dekabr 2015-ci il | Ədalətli dəyər iyerarxiyası | Qiymətləndirmə mexanizmləri və və əsas giriş məlumatları |
|---|---|---|---|---|
| 1) Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə qeyd olunan maliyyə aktivləri | 7,319 | 906 | Səviyyə 2 | Diskontlaşdırılmış pul vəsaitləri hərəkəti Gələcək pul vəsaitlərinin hərəkəti hesabat dövrünün sonunda müşahidə edilə bilən svop mübadilə məzənnələrinə əsaslanmaqla svop dərəcələri ilə hesablanır |
| 2) Satılabilən investisiyalar | 36,166 | - | Səviyyə 1 | Fəal bazarda bəyan edilmiş qiymətlər |

2016-cı ilin birinci yarımilliyində və 2015-ci ildə Səviyyə 1 və Səviyyə 2 arasında keçidlər olmayıb.

**Dövri olaraq ədalətli dəyərlə ölçülməyən (lakin ədalətli dəyər açıqlamalarının tələb olunduğu) maliyyə aktivləri və maliyyə öhdəliklərinin ədalətli dəyəri.** Aşağıdakı cədvəldə maliyyə aktivlərinin və öhdəliklərinin balans dəyərinin onların hesablanmış ədalətli dəyərləri ilə müqayisəsi verilir:

| | 30 iyun 2016-cı il | | 31 dekabr 2015-ci il | |
|---|---|---|---|---|
| | Balans dəyəri | Ədalətli dəyər | Balans dəyəri | Ədalətli dəyər |
| **Maliyyə aktivləri** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 2,289,342 | 2,289,342 | 1,597,696 | 1,597,696 |
| Mərkəzi bankda yerləşdirilmiş məcburi ehtiyatlar | 11,909 | 11,909 | 15,334 | 15,334 |
| Banklardan və digər maliyyə institutlarından alınacaq vəsaitlər | 3,285,740 | 3,115,755 | 102,028 | 102,674 |
| Müştərilərə verilmiş kreditlər | 5,135,769 | 5,015,507 | 5,664,881 | 5,633,400 |
| Aqrarkredit QSC-dən alınacaq vəsaitlər | 2,842,432 | 2,842,432 | 5,628,923 | 5,628,923 |
| Digər maliyyə aktivləri | 269,866 | 269,866 | 210,934 | 210,934 |
| **Maliyyə öhdəlikləri** | | | | |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | 1,669,425 | 1,650,598 | 2,150,964 | 2,147,482 |
| Müştəri hesabları | 8,175,442 | 8,210,065 | 6,696,759 | 6,717,539 |
| Buraxılmış borc qiymətli kağızları | 788,018 | 785,820 | 893,654 | 818,928 |
| Digər borc alınmış vəsaitlər | 1,984,846 | 1,953,776 | 2,310,214 | 2,311,738 |
| Digər maliyyə öhdəlikləri | 96,667 | 96,667 | 64,475 | 64,475 |
| Subordinasiya borcu | 771,995 | 758,376 | 759,043 | 759,043 |

## 18. Ədalətli dəyər (davamı)

30 iyun 2016-cı il tarixinə Qrupun ədalətli dəyər iyerarxiyası haqqında məlumatının təfərrüatları aşağıdakı kimidir:

| | 30 iyun 2016-cı il | | | |
|---|---|---|---|---|
| | Səviyyə 1 | Səviyyə 2 | Səviyyə 3 | Cəmi |
| **Maliyyə aktivləri** | | | | |
| Banklardan və digər maliyyə institutlarından alınacaq vəsaitlər | - | 3,115,755 | - | 3,115,755 |
| Müştərilərə verilmiş kreditlər | - | - | 5,015,507 | 5,015,507 |
| Aqrarkredit QSC-dən alınacaq vəsaitlər | - | - | 2,842,432 | 2,842,432 |
| Digər maliyyə aktivləri | - | - | 269,866 | 269,866 |
| **Maliyyə öhdəlikləri** | | | | |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | - | 1,650,598 | - | 1,650,598 |
| Müştəri hesabları | - | - | 8,210,065 | 8,210,065 |
| Buraxılmış borc qiymətli kağızları | 772,245 | - | 13,575 | 785,820 |
| Digər borc alınmış vəsaitlər | - | 1,953,776 | - | 1,953,776 |
| Digər maliyyə öhdəlikləri | - | - | 96,667 | 96,667 |
| Subordinasiya borcu | - | - | 758,376 | 758,376 |

31 dekabr 2015-ci il tarixinə Qrupun ədalətli dəyər iyerarxiyası haqqında məlumatının təfərrüatları aşağıdakı kimidir:

| | 31 dekabr 2015-ci il | | | |
|---|---|---|---|---|
| | Səviyyə 1 | Səviyyə 2 | Səviyyə 3 | Cəmi |
| **Maliyyə aktivləri** | | | | |
| Banklardan və digər maliyyə institutlarından alınacaq vəsaitlər | - | 102,674 | - | 102,674 |
| Müştərilərə verilmiş kreditlər | - | - | 5,633,400 | 5,633,400 |
| Aqrarkredit QSC-dən alınacaq vəsaitlər | - | - | 5,628,923 | 5,628,923 |
| Digər maliyyə aktivləri | - | - | 210,934 | 210,934 |
| **Maliyyə öhdəlikləri** | | | | |
| Banklara və digər maliyyə institutlarına ödəniləcək vəsaitlər | - | 2,147,482 | - | 2,147,482 |
| Müştəri hesabları | - | - | 6,717,539 | 6,717,539 |
| Buraxılmış borc qiymətli kağızları | 804,308 | - | 14,620 | 818,928 |
| Digər borc alınmış vəsaitlər | - | 2,311,738 | - | 2,311,738 |
| Digər maliyyə öhdəlikləri | - | - | 64,475 | 64,475 |
| Subordinasiya borcu | - | - | 759,043 | 759,043 |

Cədvəldə Səviyyə 2 kateqoriyasında daxil edilmiş maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri, diskontlaşdırılmış pul vəsaitlərinin hərəkətinin təhlilinə əsasən və tərəflərin kredit riskini əks etdirən diskont dərəcəsi üzrə mühüm məlumatlardan istifadə etməklə ümumi qəbul edilmiş qiymətqoyma modellərinə uyğun olaraq müəyyən edilmişdir.

30 iyun 2016 və 31 dekabr 2015-ci il tarixlərinə Qrupun binaları ədalətli dəyər iyerarxiyasında 3-cü kateqoriyaya aid olmuşdur. 2016-cı ilin birinci yarımilliyində və 2015-ci ildə Səviyyə 1,2,3 arasında keçidlər olmamışdır.

## 19. Əlaqəli tərəflərlə əməliyyatlar

Tərəflər o zaman əlaqəli hesab edilir ki, onlar eyni qrupun nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə və ya əməliyyat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, mahiyyətinə diqqət yetirilir.

## 19. Əlaqəli tərəflərlə əməliyyatlar (davamı)

30 iyun 2016-cı il tarixinə və 2016-cı ilin birinci yarımilliyi üzrə, əlaqəli tərəflərlə qalıqlar və əməliyyat nəticələri aşağıdakı kimi olmuşdur:

| | Hökumət qurumları və dövlət müəssisələri | Qrupun əsas idarəedici heyəti | Digər əlaqəli tərəflər | Cəmi əlaqəli tərəflər |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 348,710 | - | - | 348,710 |
| Banklardan və digər maliyyə institutlarından alınacaq vəsaitlər | 3,018,333 | - | - | 3,018,333 |
| Satılabilən investisiyalar | 36,166 | - | - | 36,166 |
| Müştərilərə verilmiş kreditlər, xalis | 708,687 | - | 39,611 | 748,298 |
| Müştərilərə verilmiş kreditlər, ümumi | 718,749 | - | 40,011 | 758,760 |
| Çıxılsın: Kreditin dəyərsizləşməsi üçün ehtiyat | (10,062) | - | (400) | (10,462) |
| Aqrarkredit QSC-dən alınacaq vəsaitlər | 2,842,432 | - | - | 2,842,432 |
| **Öhdəliklər** | | | | |
| Müştəri hesabları | 5,123,596 | 197 | 375 | 5,124,168 |
| Digər borc alınmış vəsaitlər | 189,867 | - | - | 189,867 |
| Subordinasiya borcu | 616,228 | - | - | 616,228 |
| **Məcmu gəlirlər haqqında hesabat** | | | | |
| Faiz gəliri | 29,952 | - | 2,001 | 31,953 |
| Faiz xərci | 34,773 | 3 | - | 34,776 |
| Kreditin dəyərsizləşməsi üçün ehtiyatın bərpası | 777 | - | 4,274 | 5,051 |
| **Balansdankənar öhdəliklər** | | | | |
| Verilmiş zəmanətlər | 486,144 | - | 462,528 | 948,672 |
| İdxal akkreditivləri | 202,035 | - | 63,570 | 265,605 |
| Kreditin verilməsi üzrə öhdəliklər və istifadə edilməmiş kredit xətləri | 56,753 | - | - | 56,753 |

31 dekabr 2015 və 2015-cı ilin birinci yarımilliyi üzrə, əlaqəli tərəflərlə qalıqlar və əməliyyat nəticələri aşağıdakı kimi olmuşdur:

| | Hökumət qurumları və dövlət müəssisələri | Qrupun əsas idarəedici heyəti | Asossiasiyalar | Digər əlaqəli tərəflər | Cəmi əlaqəli tərəflər |
|---|---|---|---|---|---|
| **Aktivlər** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,064,024 | - | - | - | 1,064,024 |
| Müştərilərə verilmiş kreditlər, xalis | 622,910 | - | 15,144 | 26,942 | 664,996 |
| Müştərilərə verilmiş kreditlər, ümumi | 633,749 | - | 15,300 | 31,615 | 680,664 |
| Çıxılsın: Kreditin dəyərsizləşməsi üçün ehtiyat | (10,839) | - | (156) | (4,674) | (15,669) |
| Aqrarkredit QSC-dən alınacaq vəsaitlər | 5,628,923 | - | - | - | 5,628,923 |
| Digər maliyyə aktivləri | 191,648 | - | - | - | 191,648 |
| **Öhdəliklər** | | | | | |
| Müştəri hesabları | 3,127,579 | 80 | 22 | 16 | 3,127,697 |
| Digər borc alınmış vəsaitlər | 203,435 | - | - | - | 203,435 |
| Subordinasiya borcu | 600,000 | - | - | - | 600,000 |
| **Məcmu gəlirlər haqqında hesabat** | | | | | |
| Faiz gəliri | 52,110 | - | 1,155 | 2,072 | 55,337 |
| Faiz xərci | 37,978 | - | - | - | 37,978 |
| Kreditin dəyərsizləşməsi üçün (ehtiyat)/ehtiyatın bərpası | 10,603 | 7 | (156) | (4,674) | 5,780 |
| Haqq və komissiya gəliri | - | - | 22 | - | 22 |
| **Balansdankənar öhdəliklər** | | | | | |
| Verilmiş zəmanətlər | 518,034 | - | 15,894 | 234 | 534,162 |
| İdxal akkreditivləri | 88,707 | - | - | - | 88,707 |
| Kreditin verilməsi üzrə öhdəliklər və istifadə edilməmiş kredit xətləri | 6,859 | - | - | - | 6,859 |

## 19. Əlaqəli tərəflərlə əməliyyatlar (davamı)

Əsas idarəedici heyətə ödənişlər aşağıdakı kimi olmuşdur:

| | 2016-cı ilin birinci yarımilliyi | 2015-ci ilin birinci yarımilliyi |
|---|---|---|
| Qısamüddətli bonuslar: | | |
| - əmək haqları | 237 | 299 |
| - fəaliyyətlə bağlı mükafatlar | - | 49 |
| **Cəmi** | **237** | **348** |

## 20. Hesabat tarixindən sonrakı hadisələr

Aqrarkredit QSC 30 iyun 2016-cı il tarixinə qalıq məbləği 2,842,432 min manat olan debitor borcunu, 2016-cı ilin iyul ayı ərzində tam şəkildə ödəmişdir.